**İnformasiya təhlükəsizliyinə diqqət artırılmalıdır...**

Azərbaycan İnternet Forumunun rəhbəri Osman Gündüz «Nağdsız ödənişlər və təhlükəsizlik problemləri» mövzusunda çıxışında demişdir:

- Cəmiyyətdə informasiya texnologiyalarının rolu hədsiz dərəcədə böyükdür. İnformasiyalı cəmiyyətin inkişafı yeni texnologiyaların tətbiqi ilə sıx bağlıdır. Milli informasiya və kommunikasiya infrastrukturunun mütərəqqi texnologiyalar əsasında müasirləşdirilməsi, informasiya cəmiyyətinin inkişaf etdirilməsi hökumətin həyata keçirdiyi siyasətin əsas istiqamətlərindən biridir. Xüsusilə də yeni texnologiyaların tətbiqi, elektron xidmətlərin genişləndirilməsi ölkənin ümumi inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə son illər respublikamızda informasiya texnologiyalarının tətbiqi ilə bağlı çox mühüm addımlar atılmaqdadır. Dövlət informasiya və biliklərə əsaslanan rəqabətədavamlı iqtisadiyyatın qurulması, cəmiyyətin informasiya məhsulları və xidmətlərinə tələbatının dolğun ödənilməsi məqsədilə İKT infrastrukturuna və xidmətlərinə çıxışın təmin olunmasını başlıca prioritetlərdən hesab edir. Son illər internet xidmətlərinin tariflərinin aşağı salınması, yeni layihələrin həyata keçirilməsi, dövlət qurumlarında İKT-nin tətbiqinin genişləndirilməsi, elektron xidmətlərlə bağlı ciddi tədbirlərin görülməsi respublikamızın beynəlxalq hesabatlarda mövqeyinin yaxşılaşmasında mühüm rol oynamışdır. Elektron xidmətlər dövlət orqanı ilə vətəndaş arasında qarşılıqlı münasibətlərin səmərəliliyinin və keyfiyyətinin artırılmasına, baş verə biləcək bütün neqativ halların qarşısının alınmasına, dövlət idarəetmə sisteminin ən müasir standartlar səviyyəsinə yüksəltməyə imkan yaradır, vətəndaşların tələbatlarına, iqtisadi səmərəliliyə, vətəndaş nəzarətinin açıq olmasına səbəb olur. Bu sistem dövlət strukturlarının müasir informasiya texnologiyalarından istifadə etməklə istehlakçılara bilavasitə informasiya xidmətlərinin təşkilinə şərait yaradır. İqtisadi idarəetmə sektorunda şəffaflıqla yanaşı,

e-xidmətlərin çeviklik, sürət, əlverişlilik, operativlik, fasiləsizlik, interaktivlik, qənaətlilik, miqyaslılıq kimi üstünlükləri vardır.

Son illər beynəlxalq təşkilatlar tərəfindən İKT ilə bağlı müsbət qiymətləndirmələr onu göstərir ki, Azərbaycan hökuməti qeyd olunan sahədə inkişafa təkan verən mühüm addımlar atmışdır. Bu addımlar həm də nağdsız ödəniş sisteminin inkişafına təkan verir. Lakin bu sahədə müəyyən texnoloji problemlərin mövcudluğu vətəndaşların nağdsız ödənişlərə olan inamsız yanaşmasına gətirib çıxarır ki, bu da yolverilməzdir. Məsələn, bəzi hallarda nağdsız ödənişlərin hesaba köçməsində gecikmələr və başqa problemlər olur. Son nəticədə yaranan texniki problem vətəndaşları nağd ödənişlərdən istifadəyə təhrik edir. Belə halların qarşısının alınması üçün müvafiq dövlət qurumları da aktiv fəaliyyət göstərməlidirlər. İnanırıq ki, ölkə başçısının fərmanı ilə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yanında yaradılmış informasiya təhlükəsizliyi ilə bağlı yeni qurum bu sahədəki mövcud problemlərin həlli üçün lazımlı addımlar atacaqdır.